# Apriori bilik necə mümkündür?

written by Anar Jafarov Anar Cəfərov

Bertran Rassel (*Bertrand Russell*; 1872-1970) məşhur britaniyalı filosof, analitik fəlsəfənin yaradıcılarındandır. Onun zəngin yaradıcılığı fəlsəfənin bir çox fundamental suallarına cavab axtarışını özündə ehtiva edir. Hazırda biz Rasselin dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan *Fəlsəfənin problemləri* (*The Problems of Philosophy*) əsərini ingilis dilindən Azərbaycan dilinə tərcümə etməkdəyik. Əsər on beş fəsildən ibarətdir ki, onların da hər biri mühüm bir fəlsəfəsi mövzuya həsr edilmişdir. Tərcüməmizin səkkizinci hissəsini aşağıda oxuya bilərsiniz.

Dr. Anar Cəfərov

İmmanuel Kant modern filosoflar içərisində adətən ən nəhəngi hesab olunur. Yeddiillik müharibə və Fransa İnqilabı dövründə yaşamasına baxmayaraq, Şərqi Prusiyada, Köniqsberqdə fəlsəfəni tədris etməyi heç zaman dayandırmamışdır. Onun əsas töhvəsi bizim "tənqidi" adlandırdığımız, müxtəlif növ biliklərin olduğunu verilən kimi qəbul edərək onların necə mümkün olmasını sual edən və bu sualdan varlığın təbiəti haqqında çoxlu metafizik nəticələr çıxaran fəlsəfənin ixtirası idi. Bu nəticələrin düzgün olduğuna şübhə etmək olar. Ancaq Kant iki məsələdə sözsüz etimada layiqdir: birincisi, xalis "analitik" – yəni əksi ziddiyyətli – olmayan apriori biliklərə malik olduğumuzu müəyyən etdiyinə görə;  ikincisi, bilik nəzəriyyəsinin fəlsəfi əhəmiyyətini aydın göstərdiyinə görə.

Kantdan əvvəl ümumilikdə belə düşünülürdü ki, hər bir apriori bilik "analitik" olmalıdır. Bu sözün nə mənaya gəldiyi ən yaxşı nümunələrlə göstərilə bilər. Əgər mən "keçəl insan insandır", "düz fiqur fiqurdur", "pis şair şairdir" deyirəmsə, xalis analitik hökm irəli sürürəm: haqqında bəhs edilən subyekt ən azı iki xüsusiyyəti ilə təqdim olunur və onlardan

biri vurğulanaraq fərqləndirilir. Yuxarıdakı misallar trivialdır və sofistik çıxışa hazırlaşan natiqi istisna etsək, praktikada onlardan heç vaxt istifadə edilmir. Onlar ona görə analitik adlandırılır ki, həmin nümunələrdə predikat sadəcə subyekt analiz edilməklə əldə edilir. Kantdan əvvəl belə düşünülürdü ki, bizə apriori qəti gələ bilən bütün hökmlər bu cürdür: onların hər birindəki predikat yalnız haqqında fikir təsdiq edilən subyektin bir hissəsidir. Əgər belədirsə, apriori bilinə bilən nəyisə inkara cəhd etsəydik, açıq-aşkar ziddiyyətə yol vermiş olardıq. "Keçəl insan keçəl deyil" eyni insanın keçəlliyini həm təsdiq, həm də inkar etmiş və bu səbəbdən özünə zidd olardı. Beləliklə, Kantdan əvvəlki filosoflara görə, heç bir şeyin eyni anda müəyyən xüsusiyyətə həm malik ola, həm də olmaya bilmədiyini iddia edən ziddiyyət qanunu bütün apriori biliklərin doğruluğunu təsbit etməyə kifayət edirdi.

Kantın sələflərindən olan Yum (1711-1776) biliyin aprioriliyi ilə bağlı ümumi mövqeni bölüşərək aşkar etdi ki, əvvəl analitik olduğu güman olunan bir sıra hallarda, səbəb-nəticə hallarında isə nəzərə çarpacaq dərəcədə, əlaqə əslində sintetikdir. Yumdan əvvəl rasionalistlər ən azı güman edirdilər ki, yalnızca kafi biliyə malik olarıqsa, nəticə səbəbdən məntiqi olaraq çıxarıla bilər. Yum – düzgün olaraq, indi ümumən qəbul edildiyi kimi – iddia edirdi ki, belə nəticə çıxarıla bilməz. Buradan o, daha şübhəli nəticəyə gəlirdi ki, səbəb-nəticə əlaqəsi ilə bağlı heç nə apriori bilinə bilməz. Rasionalist ənənədə təhsil almış Kantı Yumun skeptisizmi daha çox həyəcanlandırmışdı və o, buna cavab tapmağa çalışırdı. O, müəyyən etdi ki, tək səbəb-nəticə əlaqəsi deyil, hesab və həndəsənin bütün propozisiyaları "sintetikdir", yəni analitik deyil: bu propozisiyaların heç birində subyektin analizi predikatı verməyəcək. Onun əsas nümunəsi 7+5=12 propozisiyası idi. Kant tam doğru olaraq qeyd edirdi ki, 7 və 5 bir araya gətirilməlidir ki, 12 əldə edilsin: 12 ideyası nə 7 və 5-də, nə də onları cəmləmək ideyasında *ehtiva* edilmir. Beləliklə, o, belə nəticəyə gəldi ki, xalis riyaziyyat apriori olmasına

baxmayaraq sintetikdir. Bu nəticə isə Kantın həllini tapmağa cəhd edəcəyi yeni bir problemi ortaya atmış oldu.

Kantın öz fəlsəfəsinin başlanğıcında qoyduğu sual, yəni “Xalis riyaziyyat necə mümkündür?” maraqlı və çətin sualdır, hansına ki hər bir fəlsəfi nəzəriyyə, əgər tam skeptik deyilsə, müəyyən bir cavab tapmalıdır. Biz xalis empiriklərin – riyazi biliklərimizin tək nümunələrdən induktiv olaraq hasil edilməsi – cavabının artıq iki səbəbdən qeyri-adekvat olduğunu gördük: birincisi o idi ki, induktiv prinsipin öz düzgünlüyü (validity) induksiya vasitəsilə sübut edilə bilməz; ikincisi, riyaziyyatın “iki üstəgəl iki həmişə dörd edir” kimi ümumi propozisiyaları, aydındır ki, bir nümunə nəzərdən keçirməklə qətiliklə bilinə bilər və bu propozisiyaların doğru aşkarlandığı digər nümunələri sadalamaq onlara əlavə heç nə qazandırmaz. Beləliklə, riyaziyyatın ümumi propozisiyaları haqqındakı biliklərimiz (eynisi məntiqə də aiddir) “bütün insanlar ölümlüdür” kimi empirik ümumiləşdirmələr haqqındakı (sadəcə ehtimali) biliklərimizdən fərqli cür izah edilməlidir.

Problem bütün təcrübələrin tək, biliyin isə ümumi olmasından yaranır. Qəribə görünən budur ki, haqqında hələ təcrübəyə malik olmadığımız tək şeylər haqqında bir sıra həqiqətləri irəlicədən bilmək bacarığında olmalıyıq; hərçənd asanlıqa şübhə edilə bilməz ki, məntiq və hesab həmin şeylərə tətbiq edilir. Biz bilmirik ki, yüz il sonra Londonun sakinləri kimlər olacaq; ancaq bilirik ki, onlardan istənilən ikisi ilə digər istənilən ikisinin cəmi dörd London sakini edəcək. Barəsində təcrübəyə malik olmadığımız şeylər haqqındakı faktlardan irəlicədən xəbər vermək bacarığı, əlbəttə, təəccübləndiricidir. Kantın bu problemə verdiyi həll, mənim fikrimcə, düzgün olmasa da, maraqlıdır. Hərçənd bu həll çox çətindir və müxtəlif filosoflar tərəfindən müxtəlif cür başa düşülür. Ona görə biz onun yalnız sadə icmalını verə bilərik; hətta bu belə Kant sisteminin bir çox şərhçiləri tərəfindən yanıldıcı olaraq başa düşüləcək.

Kantın iddiası bu idi ki, bütün təcrübələrimizdə biri obyektə

(yəni bizim “fiziki obyekt” adlandırdığımız), digəri özümüzün təbiətinə aid olan iki element bir-birindən fərqləndirilməlidir. Materiya və hissi verilənləri müzakirə edəndə gördük ki, fiziki obyekt onunla assosiasiya olunmuş hissi verilənlərdən fərqlidir, həmçinin gördük ki, hissi verilənlər fiziki obyektlə özümüz arasındakı qarşılıqlı əlaqənin nəticəsi olaraq nəzərdən keçirilməlidir. Buraya qədər Kantla eyni fikirdəyik. Ancaq Kantda fərqli olan bizim payla fiziki obyektin payını müəyyən etməsi yoludur. O, hesab edir ki, duyğularda verilən xam material – rəng, bərklik, və s. – obyektə aiddir, bizim əlavəmiz isə zaman və məkan nizamlaması və müqayisə və ya bir nəsnəni digərinin səbəbi kimi nəzərdən keçirmə, yaxud hansısa digər yolla hasil olan hissi verilənlər arasındakı hər cür münasibətdir. Onun bu fikir lehinə əsas arqumenti budur ki, görünür, biz aktual xam duyğu haqqında deyil, məkan və zaman, səbəbiyyət və müqayisə haqqında apriori biliklərə malikik. Biz əmin ola bilərik ki, – o deyir, – təcrübə edəcəyimiz hər bir şey onun apriori biliklərimizdə təsdiqlənən xüsusiyyətlərini nümayiş etdirməlidir, çünki bu xüsusiyyətlər bizim öz təbiətimizə aiddir və bu səbəbdən həmin xüsusiyyətlərə malik olmadan heç bir şey təcrübəmizə verilə bilməz.

“Özündə şey” adlandırdığı fiziki obyekti Kant mahiyyətcə bilinməz hesab edir;[1] bilinə bilən obyekt təcrübələrimizdə bizə verilən kimidir – bunu o, “fenomen” adlandırır. Əlbəttə, fenomen bizimlə özündə şeyin birgə məhsulu olaraq həmin bizə aid xüsusiyyətlərə malikdir və bu səbəbdən, əlbəttə, apriori biliklərimizə tabe olmalıdır. Deməli, aktual və mümkün bütün təcrübələr haqqında olmasına baxmayaraq, bu biliyin təcrübədən kənar tətbiqinin olduğu güman edilməməlidir. Beləliklə, apriori biliklərin mövcudluğuna baxmayaraq, biz özündə şey və ya təcrübənin aktual və ya mümkün obyektinin nə olması haqqında heç nə bilə bilmərik. Bu yolla o, rasionalistlərin iddialarını empiriklərin arqumentləri ilə barışdırmağa və uzlaşdırmağa çalışır.

Kant fəlsəfəsinin tənqidinə rəvac verə bilən xırda əsasları kənara qoysaq, onun metodu vasitəsilə apriori bilik probleminin istənilən həll cəhdini nəticəsiz göstərən bir əsas irad var. İzah olunmalı olan məsələ bizim *faktlar həmişə məntiq və hesaba tabe olmalıdır* əminliyimizdir. Məntiq və hesabın dünyaya bizim tərəfimizdən gətirildiyini demək bunu izah etmir. Bizim təbiətimiz istənilən digər şeyin olduğu qədər mövcud dünyanın bir faktıdır və onun daimi olaraq qalacağına biz əmin ola bilmərik. Kant düzdürsə, ola bilər ki, sabah bizim təbiətimiz iki üstəgəl ikinin beş edəcəyi dərəcədə dəyişər. Bu mümkünlük, görünür, heç zaman onun ağlına gəlməyib; bununla belə, o, Kantın hesaba aid propozisiyaları sübut etmək üçün arzuladığı qətilik və universallığı tamamilə dağıdır. Doğrudur ki, bu mümkünlük Kantın – zaman özü subyekt tərəfindən fenomenin boynuna qoyulan bir formadır, belə ki, bizim gerçək Mənimiz zamanda deyil və onun sabahı yoxdur – baxışına formal olaraq uyğun deyil. Ancaq yenə də, o, qəbul etməlidir ki, fenomenlərin zaman nizamı onların arxasında olan nəsnə tərəfindən müəyyən edilir və bu, bizim arqumentin mahiyyəti üçün kifayət edir.

Bundan əlavə, görünür, refleksiya onu aydın edir ki, riyazi inamlarımızda hansısa doğruluq varsa, şeylərə – onlar haqqında düşünüb-düşünməməyimizdən asılı olmayaraq – eyni qaydada tətbiq olunmalıdır. İki fiziki obyekt və digər iki fiziki obyekt – onlar təcrübə edilə bilməsə də – dörd fiziki obyekt etməlidir. Bunu iddia etmək, əlbəttə, "iki üstəgəl iki dörd edir" dedikdə nəzərdə tutduğumuzun sərhədləri daxilindədir. Onun doğruluğu "iki fenomen və iki digər fenomen dörd fenomen edir" iddiasının doğruluğu qədər şübhəsizdir. Beləliklə, Kantın həlli apriori propozisiyaların sərhədlərini həddindən artıq məhdudlaşdırır, həmçinin onların qətiliyini izah etmək cəhdində uğursuzdur.

Kant tərəfindən müdafiə olunan xüsusi təlimlərdən əlavə, filosoflar arasında belə bir fikir geniş yayılıb ki, apriori olan xarici dünyanın hər hansı faktına aid olmaqdan daha çox müəyyən mənada zehinə, düşünməli olduğumuz üsula aiddir.

Əvvəlki fəsildə əsasən “təfəkkür qanunları” adlanan üç prinsip haqqında bəhs etdik. Onların bu cür adlandırılmasına gətirib çıxaran baxış təbiidir, ancaq onun qüsurlu olduğunu düşünmək üçün ciddi əsaslar var. Gəlin nümunə kimi ziddiyyət qanununu götürək. Bu qanun adətən “heç bir şey həm x, həm də qeyri-x ola biməz” şəklində ifadə olunur və belə bir faktı ifadə etməyi nəzərdə tutur: heç bir şey eyni anda müəyyən keyfiyyətə həm malik ola, həm də olmaya bilməz. Məsələn, əgər bir ağac fıstıq ağacıdırsa, o həm də fıstıq ağacı olmaya bilməz; əgər mənim stolum düzbucaqlıdırsa, o həm də düzbucaqlı olmaya bilməz və s.

Bu prinsipi *təfəkkür* qanunu adlandırmağı təbii edən budur ki, onun zəruri doğruluğuna özümüzü xarici müşahidə vasitəsilə deyil, düşünmə vasitəsilə inandırırıq. Ağacın fıstıq ağacı olduğunu görmüş olduqda, həm də fıstıq ağacı olmadığını müəyyən etmək üçün ona yenidən baxmağa ehtiyac görmürük; yalnız düşünməklə bilə bilirik ki, bu, mümkünsüzdür. Bununla belə, “ziddiyyət qanunu *təfəkkür* qanunudur” nəticəsi qüsurludur. Ziddiyyət qanununa inandıqda inandığımız şey bu deyil ki, zehnimiz elə qurulub ki, biz ziddiyyət qanununa inanmalıyıq. *Bu* inam ziddiyyət qanununa inamı irəlicədən güman edən psixoloji refleksiyanın sonrakı nəticəsidir. Ziddiyyət qanununa inam şeylər haqqında inamdır, yalnız düşüncələr haqqında deyil. O, məsələn, “müəyyən bir ağacın fıstıq ağacı olduğunu *düşünürüksə*, onun eyni anda fıstıq ağacı olmadığını *düşünə* bilmərik” inamı deyil; o, “əgər ağac fıstıq ağacı*dır*sa, o, eyni anda fıstıq ağacı *olmaya* bilməz” inamıdır. Beləliklə, ziddiyyət qanunu şeylər haqqındadır, sadəcə düşüncə haqqında deyil; həmçinin, ziddiyyət qanununa inamın düşüncə olmasına baxmayaraq, qanunun özü düşüncə deyil, dünyadakı şeylərə aid bir faktdır. Əgər bu – yəni bizim ziddiyyət qanununa inandıqda inandığımız – dünyadakı şeylər haqqında doğru olmasaydı, ziddiyyət qanununun doğru olduğuna *düşünməyə* sövq edilmiş olmağımız faktı onu yanlış olmaqdan xilas etməzdi; bu isə göstərir ki, həmin qanun *təfəkkür* qanunu deyil.

Oxşar arqument istənilən başqa apriori fikrə tətbiq olunur.

İki üstəgəl ikinin dörd etdiyini fikirləşdikdə, düşüncələrimiz haqqında deyil, bütün aktual və ya mümkün cütlər haqqında fikir irəli sürürük. Zehnimizin iki üstəgəl ikinin dörd etməsinə inanır kimi quruluş alması faktının doğru olmasına baxmayaraq, *iki üstəgəl iki dörd edir* iddiasında olduqda iddia etmək istədiyimiz o deyil. Həmçinin zehinlərimizin quruluşu haqqındakı heç bir fakt iki üstəgəl ikinin dörd etdiyini *doğru* edə bilməz. Beləliklə, bizim apriori biliyimiz, əgər o, yanlış deyilsə, yalnız zehinlərimizin quruluşu haqqında bilik deyil; o, həm zehni, həm də qeyri-zehni dünyada ola bilən hər şeyə tətbiq olunur.

Görünür, məsələ bu yerdədir ki, bütün apriori biliklərimiz, düzgün desək, nə zehni, nə də fiziki dünyada *mövcud olmayan* nəsnələrə aiddir. Bunlar elə nəsnələrdir ki, nitqin mübtəda olmayan hissələri tərəfindən adlandırıla bilər; bunlar keyfiyyətlər və əlaqələr kimi nəsnələrdir. Məsələn, təsəvvür edin ki, mən otağımdayam (I am in my room). Mən (I) mövcudam və otağım (my room) mövcuddur; bəs, “da” (“in”) mövcuddurmu? Hərçənd, aydındır ki, “-da” hissəsinin mənası var; o, mənimlə otağım arasındakı əlaqəni bildirir. Bu əlaqə bir nəsnədir, baxmayaraq ki, biz deyə bilmərik ki, o, mənim və otağımın mövcud olduğu *mənada* mövcuddur. “-da” əlaqəsi elə bir nəsnədir ki, biz onun haqqında düşünə və onu anlaya bilərik, çünki onu anlaya bilməsəydik, “Mən otağımdayam” cümləsini də anlaya bilməzdik. Kantın ardınca bir çox filosoflar da qeyd edirdilər ki, əlaqələr zehnin işidir və özündə şeylərin əlaqələri yoxdur, onları zehin təfəkkür aktında bir araya gətirir və beləliklə əlaqələri şeylərə aid hesab edərək yaradır.

Ancaq bu baxış Kant əleyhinə yuxarıda qaldırdıqlarımıza oxşar olan iradlara açıq görünür. Aydın görünür ki, “Mən otağımdayam” propozisiyasının doğruluğunu yaradan düşüncə deyil. Otağımda bir həşəratın olduğu doğru ola bilər – nə mən, nə həşərat, nə də başqa birisi bu həqiqətin fərqində olmasa da; çünki bu həqiqət yalnız həşərata və otağa aiddir, başqa heç nədən asılı deyil. Beləliklə, əlaqələr, növbəti fəsildə daha tam görəcəyimiz kimi, nə zehni, nə də fiziki olmayan

dünyada yerləşdirilməlidir. Bu dünyanın fəlsəfəyə, xüsusilə də apriori bilik problemlərinə böyük əhəmiyyəti var. Növbəti fəsildə onun təbiəti və məşğul olduğumuz suallarla əlaqəsi üzərində dayanacağıq.

**Qeydlər və istinadlar:**

[1] Kantın "özündə şeyi" *tərifinə görə* fiziki obyektlə eynidir, yəni o, duyğularımızın səbəbidir. Tərifdən hasil olan xüsusiyyətlərinə görə isə o, fiziki obyektlə eyni deyil, çünki Kant (səbəb anlayışı ilə bağlı qeyri-ardıcıllığa baxmayaraq) qeyd edir ki, biz bilə bilərik ki, heç bir kateqoriya "özündə şey"ə tətbiq olunmur.

**Tərcümənin birinci hissəsi:**

https://bakuresearchinstitute.org/az/tezahur-ve-gerceklik/embed/#?secret=98hBkukxzN#?secret=302dJbmftq

**Tərcümənin ikinci hissəsi:**

https://bakuresearchinstitute.org/az/materiyanin-movcudlugu/embed/#?secret=Ohm06K5IJn#?secret=TGiCgI1Wf6

**Tərcümənin üçüncü hissəsi:**

https://bakuresearchinstitute.org/az/materiyanin-tebieti/embed/#?secret=8D9qtZbk1d#?secret=AMjbFdlx45

**Tərcümənin dördüncü hissəsi:**

https://bakuresearchinstitute.org/az/idealizm/embed/#?secret=UgwBzSwfVu#?secret=VkBizUpKRi

**Tərcümənin beşinci hissəsi:**

https://bakuresearchinstitute.org/az/tanisliq-biliyi-ve-tesviri-bilik/embed/#?secret=EtR3q3r3TH#?secret=0NkqJ4EQlA

**Tərcümənin altıncı hissəsi:**

https://bakuresearchinstitute.org/az/induksiya-haqqinda/embed/#?secret=O2GF9D2bgl#?secret=Alxr0q4t2t

**Tərcümənin yeddinci hissəsi:**

https://bakuresearchinstitute.org/az/umumi-prinsipler-haqqindaki-biliklerimiz-barede/embed/#?secret=JD9RBiQ12b#?secret=zrC73lLJkN